# Kredit Həyat Sığortası üzrə Şərtlər

## Sığorta təminatı

Bu Sığorta Şəhadətnaməsi ilə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının 23 sentyabr 2014-cü il tarixli Q-21 nömrəli qərarı ilə təsdiq edilmiş “Fiziki şəxslərə təqdim edilən kredit müqavilələri üzrə borcalanın həyatının ölüm halından və əmək qabiliyyətinin itirilməsi hallarından sığortası qaydaları”nın (bundan sonra “Qaydalar” adlandırılacaq) 5-ci bəndində qeyd edilən məhdudiyyətlər nəzərə alınmaqla aşağıdakılara təminat verilir:

- *Sığorta olunanın istənilən səbəbdən ölümü*
- *Sığorta olunanın bədbəxt hadisə və ya xəstəlik nəticəsində orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyinin müəyyən edilməsi*
- *Sığorta olunanın bədbəxt hadisə və ya xəstəlik nəticəsində orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlilliyinin müəyyən edilməsi*
- *Sığorta olunanın bədbəxt hadisə və ya xəstəlik nəticəsində orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlilliyinin müəyyən edilməsi*

## Sığorta məbləği

Sığorta hadisəsinin baş verdiyi tarixə sığorta məbləğinin həcmi Qaydaların 13.6.2–ci bəndinə əsasən kredit müqaviləsi üzrə borcun ödəniş qrafikində nəzərdə tutulmuş qaydada azalmasına uyğun olaraq həmin ay üzrə kreditin qalığı həcmində müəyyən edilir.

Sığorta Şəhadətnaməsinin müddəti kredit müqaviləsinin müddətindən və/və ya sığorta məbləğinin həcmi kredit məbləğinin həcmindən az olduqda sığorta olunanın qalıq borcu Sığortaçı tərəfindən Sığorta Şəhadətnaməsində göstərilmiş sığorta məbləğinə və/və ya sığorta müddətinə uyğun olaraq hesablanır.

## Sığorta ödənişinin həcmi və verilmə qaydası

Sığorta ödənişinin həcmi aşağıdakı qaydada müəyyən edilir:

1. Sığorta olunanın istənilən səbəbdən ölümü halında – qalıq borc məbləğinin 100%-i həcmində sığorta ödənişi verilir.

1.1. Daha əvvəl əlilliyə görə sığorta ödənişi həyata keçirilibsə, istənilən səbəbdən ölüm təminatı üzrə hesablanmış sığorta məbləğindən həmin ödənişlərin cəmi çıxılmaqla yerdə qalan məbləğ ödənilir. Həmin ödənişlərin cəmi istənilən səbəbdən ölüm təminatı üzrə hesablanmış sığorta məbləğinə bərabər və ya çox olarsa, Sığortaçı tərəfindən ödəniş həyata keçirilmir.

2. Sığorta olunanın xəstəlik və ya bədbəxt hadisə nəticəsində orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyinin müəyyən edilməsi:

a. orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlillik müddətli müəyyən edildiyi halda, əlillik müəyyən edilmiş dövr ərzində ödəniş cədvəlinə uyğun olaraq ödənilməli olan məbləğin 60%-i həcmində sığorta ödənişi verilir;

b. orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlillik müddətsiz müəyyən edildiyi halda, qalıq borc məbləğinin 80%-i həcmində sığorta ödənişi verilir.

3. Sığorta olunanın xəstəlik və ya bədbəxt hadisə nəticəsində orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlilliyinin müəyyən edilməsi:

a. bədbəxt hadisə nəticəsində orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlillik müddətli müəyyən edildiyi halda, əlillik müəyyən edilmiş dövr ərzində ödəniş cədvəlinə uyğun olaraq ödənilməli olan məbləğin 40%-i həcmində sığorta ödənişi verilir;

b. bədbəxt hadisə nəticəsində orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlillik müddətsiz müəyyən edildiyi halda, qalıq borc məbləğinin 60%-i həcmində sığorta ödənişi verilir;

c.xəstəlik nəticəsində orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlillik müddətli müəyyən edildiyi halda, əlillik müəyyən edilmiş dövr ərzində ödəniş cədvəlinə uyğun olaraq ödənilməli olan məbləğin 20%-i həcmində sığorta ödənişi verilir;

d. xəstəlik nəticəsində orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlillik müddətsiz müəyyən edildiyi halda, qalıq borc məbləğinin 40%-i həcmində sığorta ödənişi verilir.

4. Sığorta olunanın xəstəlik və ya bədbəxt hadisə nəticəsində orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlilliyinin müəyyən edilməsi:

a. orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlillik müddətli müəyyən edildiyi halda, əlillik müəyyən edilmiş dövr ərzində ödəniş cədvəlinə uyğun olaraq ödənilməli olan məbləğin 10%-i həcmində, 1500 AZN-dən çox olmamaq şərtilə sığorta ödənişi verilir;

b. orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlillik müddətsiz müəyyən edildiyi halda, qalıq borc məbləğinin 10%-i həcmində, 1500 AZN-dən çox olmamaq şərtilə sığorta ödənişi verilir.

5. Qalıq borc məbləğinə sığorta hadisəsinin baş verdiyi tarixədək ödənilməli olan borc məbləği daxil edilmir.

6. Orqanizmin funksiyalarının pozulmasına görə təkrar əlillik müəyyən edildiyi halda sığorta ödənişi həyata keçirilərkən aşağıdakılar nəzərə alınır:

a) daha əvvəl əlilliyə görə sığorta ödənişi həyata keçirilibsə, təkrar əlilliyə görə hesablanmış sığorta məbləğindən həmin ödənişlərin cəmi çıxılmaqla yerdə qalan məbləğ ödənilir. Həmin ödənişlərin cəmi təkrar əlilliyə görə hesablanmış sığorta məbləğinə bərabər və ya çox olarsa, Sığortaçı tərəfindən ödəniş həyata keçirilmir.

b) orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlillik üzrə yalnız bir dəfə 4-cü bənddə nəzərdə tutulmuş həcmdə sığorta ödənişi verilir.
7. Sığorta olunanın əlilliyi müddətli müəyyən edildiyi təqdirdə borcverən olan faydalanan şəxsə sığorta ödənişi ödəniş cədvəlinə uyğun olaraq hissəvi (aylıq) şəkildə həyata keçirilir, digər bütün hallarda faydalanan şəxslərə ödəniş birdəfəlik şəkildə verilir.
8. Sığortaçı Sığortalının kredit borcu üzrə ödəniş qrafikinə uyğun olaraq sığorta hadisəsinin baş verməsindən əvvəl son ödəniş etməli olduğu tarixdən hadisə baş verən günədək hesablanan kredit faizlərinin ödənilməsini öhdəsinə götürür.

***Sığortalı / sığorta olunan aşağıdakı kateqoriyalara aid şəxsdirsə, Sığorta Şəhadətnaməsi üzrə sığorta təminatı verilmir.***

- *Yaşı 18-dən aşağı, 65-dən yuxarı olan şəxs,*
- *I və II qrup əlil, ("Əlilliyin müəyyən olunması meyarları"na əsasən orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxs)*
- *narkoloji, psixonevroloji, vərəm, dəri-zöhrəvi dispanserlərdə qeydiyyatda olan şəxs,*
- *Hepatit C, onkoloji, xroniki ürək-damar xəstəliklərindən əziyyət çəkən xəstə, QİÇS olan xəstə, İÇV daşıyıcıları olan xəstə.*